22 iyul Azərbaycanda Milli Mətbuat və Jurnalistika Günüdür

28 (1283) 20-26 iyul 2023-cü il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

## İKİTƏRƏFLİ MÜNASİBƏTLƏR İLDƏN-İLƏ DAHA DA İNKİŞAF EDİR



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 19-da Özbəkistan Respublikasının Baş naziri Abdulla Aripovu qəbul edib.
Dövlətimizin başçısı gələcəkdə əməkdaşlığın perspektivlərinin müəyyənləşdirilməsi baxımından Özbəkistanın Baş naziri Abdulla Aripovun ölkəmizə səfərinin əhəmiyyətini qeyd edib, bu əməkdaşlığın genişləndirilməsi ilə bağlı yeni uğurlu layihələrin icra olunacağına əminliyini bildirib. Abdulla Aripov Özbəkistanda keçirilmiş seçkilərdən sonra Şavkat Mirziyoyevi təbrik edən ilk dövlət başçısının məhz Prezident İlham Əliyev olduğunu qeyd edərək vurğulayıb ki, bu da dövlət başçıları və ölkələrimiz arasında dostluğun və qardaşlığın nümunəsidir.
Görüşdə Prezident İlham Əliyevin Özbəkistana dövlət səfəri və bu səfər çərçivəsində əməkdaşlığımızın hərtərəfli inkişafı ilə əlaqədar müəyyən edilmiş prioritet sahələr, bu istiqamətdə görülmüş işlərin nəticələrinin çox müsbət olduğu qeyd edilib, iqtisadi-ticarət, investisiyalar, energetika, kənd təsərrüfatı, nəqliyyat-logistika, sənaye sahələrində yeni layihələrin həyata keçirildiyi diqqətə çatdırılıb. Söhbət zamanı Orta Dəhlizin əhəmiyyəti vurğulanıb, Azərbaycanda yaradılmış azad iqtisadi zonada Özbəkistan şirkətlərinin iştirakı perspektivləri, hökumətlərarası komissiyanın fəaliyyəti və iyulun 18-də Şuşada keçirilən Azərbaycan-Özbəkistan Birgə Hökumətlərarası Komissiyasının 12-ci iclasının önəmi qeyd edilib.

## “AZƏRBAYCAN VƏ ERMƏNİSTAN REGİONDA NƏQLİYYAT VƏ İQTİSADİ ƏLAQƏLƏRİN BƏRPASI İLƏ BAĞLI DANIŞIQLARDA İRƏLİLƏYİŞ ƏLDƏ EDİBLƏR”

“Tərəflər son iki ay ərzində regionda nəqliyyat və iqtisadi əlaqələrin bərpası ilə bağlı danışıqlarda aşkar irəliləyiş əldə ediblər”.
Bu fikri Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel iyulun 15-də Brüsseldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə keçirilmiş görüşün yekunlarına dair mətbuata açıqlamasında deyib. **“Biz suverenlik, yurisdiksiya və qarşılıqlılıq prinsiplərinə hörmətlə yanaşacaq gələcək nəqliyyat razılaşmalarının şərtlərini müzakirə etdik”,** - deyə o qeyd edib.

## ŞARL MİŞEL PREZİDENT İLHAM ƏLİYEV VƏ BAŞ NAZİR NİKOL PAŞİNYANLA GÖRÜŞDƏN SONRA MƏTBUATA AÇIQLAMA VERİB

Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel iyulun 15-də Brüsseldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə keçirilmiş görüşün yekunlarına dair mətbuata açıqlama verib.
**Şarl Mişel açıqlamasında deyib:**
-Prezident Əliyev və baş nazir Paşinyanla altıncı görüşü indicə yekunlaşdırdıq. Bizim müzakirələrimiz yenə də səmimi, dürüst və məzmunlu oldu. Görüşümüz mayın əvvəlindən Ermənistan və Azərbaycan liderləri, baş nazirlərin müavinləri və xarici işlər nazirləri arasında Brüsseldə, Kişineuda, Vaşinqtonda, Moskvada, həmçinin sərhəddə intensiv və məhsuldar keçirilən yüksək səviyyəli görüşlər silsiləsinin davamı oldu.
Biz gündəlikdə olan bütün məsələləri müzakirə etdik.
Suverenlik və ərazi bütövlüyü. Ermənistan və Azərbaycan liderləri Ermənistanın 29,8 min kvadratkilometr, Azərbaycanın isə 86,6 min kvadratkilometr olmaqla ərazi bütövlüyünə və suverenliyinə hörmətlə yanaşdıqlarını bir daha qəti şəkildə təsdiqlədilər.
Sərhədlərin delimitasiyası. Hər iki lider delimitasiya üçün siyasi çərçivə kimi 1991-ci il “Alma-Ata Bəyannaməsi”nə birmənalı sadiqliklərini bir daha təsdiq etdilər.
Mən hər iki sərhəd komissiyasının 12 iyul tarixli iclasını alqışladım. Bu komissiyaların nizamnaməsi və sərhədlərin müəyyənləşdirilməsinin əsasları ilə bağlı müzakirələrdə irəliləyiş əldə edilib.
Ən mühümü isə odur ki, liderlər komissiyaların işini intensivləşdirmək və sürətləndirmək barədə razılığa gəliblər.
**Kommunikasiyalar**. Bu məsələyə gəldikdə, tərəflər son iki ay ərzində regionda nəqliyyat və iqtisadi əlaqələrin bərpasına yönəlmiş müzakirələrdə də aşkar irəliləyişə nail olublar. Biz suverenlik, yurisdiksiya və qarşılıqlılıq prinsiplərinə cavab verən gələcək nəqliyyat razılaşmalarının şərtlərini müzakirə etdik.
Dəmir yolu xəttinin tikintisinə dərhal başlanılmalıdır. Avropa İttifaqı maliyyə töhfəsi verməyə hazır olacaq. Bəzi detallar hələ də aydınlaşdırma tələb edir, lakin bu mövzuda indi mövqelər yaxınlaşır və variantlar fəal şəkildə araşdırılır.
**Humanitar yardımlar**. Qarabağın erməni əhalisinin vəziyyətini, Laçın dəhlizi ətrafında vəziyyəti müzakirə etdik. Aydındır ki, mövcud vəziyyət dayanıqlı deyil və heç kimin marağına uyğun gəlmir. Vəziyyətin normallaşmasına kömək üçün mümkün konkret addımları da müzakirə etdik.
Mən Laçın yolunun açılmasının vacibliyini vurğuladım. Mən Azərbaycanın Ağdamdan humanitar yardımları təmin etmək istəyini də qeyd etdim. Mən hər iki variantı vacib hesab edirəm və əhalinin ehtiyaclarının təmin olunması üçün hər iki tərəfdən humanitar yardımların çatdırılmasını dəstəkləyirəm.
**Hüquqlar və təhlükəsizlik**. Yerli əhalinin ilk növbədə hüquqlarının və təhlükəsizliyinin təmin olunmasına ehtiyacı var.
Mən bu kontekstdə Avropa İttifaqının Bakı ilə keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətində yaşayan ermənilərin nümayəndələri arasında birbaşa dialoqu dəstəklədiyini bildirdim.
**Saxlanılanlar.** Biz saxlanılanlar məsələsini də müzakirə etdik. Liderlər alicənablıq anlayışına sadiqliklərini bir daha təsdiqlədilər və bununla da ehtiyatsızlıqdan qarşı tərəfə keçən əsgərlərin azad olunması asanlaşacaq.
**Hadisələrin inkişafı.** Biz razılaşdıq ki, komandalarımız bu gün müzakirə olunan məsələlərin daha sonra konkret inkişafını təmin etmək üçün sıx təmasda olacaqlar. Real inkişaf isə yaxın gələcəkdə atılmalı olan növbəti addımlardan asılıdır.
Əsas prioritet isə odur ki, sülh və normallaşma danışıqlarına lazımi şəraiti təmin etmək üçün zorakılıq və sərt ritorika dayandırılmalıdır.
Mən, həmçinin Ermənistan və Azərbaycan liderlərinə yaydan sonra Brüsseldə növbəti görüşə dəvət etmək niyyətimi bir daha bildirdim. Bundan əlavə, “Avropa siyasi birliyi”nin növbəti Zirvə toplantısı çərçivəsində Qranadada Fransa və Almaniya liderlərinin də iştirakı ilə beştərəfli görüş təklifimi də diqqətə çatdırdım.

## İRAQ KÜRDÜSTAN REGİONU İLƏ İQTİSADİ-TİCARİ ƏLAQƏLƏRİN GENİŞLƏNDİRİLMƏSİ İLƏ BAĞLI MÜZAKİRƏLƏR APARILIB

İyulun 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizdə işgüzar səfərdə olan İraq Kürdüstan Regionunun başçısı Neçirvan Bərzani ilə təkbətək görüşü olub.
Söhbət zamanı Prezident İlham Əliyev ilə Neçirvan Bərzani arasında bu ilin fevralında Münxendə keçirilən görüş xatırlanıb. Həmin görüşdə əməkdaşlığın əsas istiqamətlərinin müəyyənləşdirilməsi ilə bağlı səmərəli müzakirələrin aparıldığı qeyd olunub, Neçirvan Bərzaninin səfərinin əməkdaşlığımızın dinamikasının artması işinə töhfə verəcəyi bildirilib. Sonra görüş nümayəndə heyətlərinin iştirakı ilə davam edib.
Söhbət zamanı İraq Kürdüstan Regionu ilə iqtisadi-ticari əlaqələrin genişləndirilməsi, sərmayələr, enerji sahəsində əməkdaşlıq, turizm imkanlarının artırılması, birbaşa aviareyslərin açılması və digər məsələlərlə bağlı müzakirələr aparılıb.

## BRÜSSEL GÖRÜŞLƏRNDƏ SÜLH PROSESİ ÜZRƏ DANIŞIQLAR DAVAM ETDİRİLİB



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin dəvəti ilə iyulun 14-də Belçika Krallığında işgüzar səfərdə olub.
Prezident İlham Əliyev Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişellə görüşüb. Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması istiqamətində Şarl Mişelin göstərdiyi səylərə görə təşəkkürünü ifadə edən dövlətimizin başçısı Brüssel formatının səmərəli olduğunu vurğulayıb. Söhbət zamanı Azərbaycan Prezidenti İlham Əliyev, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistanın baş naziri Nikol Paşinyanın iştirakı ilə sabah keçiriləcək üçtərəfli danışıqlar, həmçinin Ermənistan ilə Azərbaycan arasında sülh danışıqları ilə bağlı fikir mübadiləsi aparılıb.
İyulun 15-də Brüsseldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə üçtərəfli görüşü olub.
Söhbət zamanı Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılması, sülh prosesi üzrə danışıqların davam etdirilməsi, sərhədlərin delimitasiyası, nəqliyyat kommunikasiyalarının açılması, Ermənistanın hərbi birləşmələrinin Azərbaycan ərazilərindən çıxarılması və qanunsuz hərbi birləşmələrin tərksilah edilməsi ilə bağlı fikir mübadiləsi aparılıb.
Brüsseldə keçirilən bu danışıqlar Vaşinqton görüşünün davamı kimi qiymətləndirilib.

## TORPAQLARIN İSTİFADƏSİZ QALMASININ QARŞISINI ALMAQLA BAĞLI YENİ LAYİHƏYƏ BAŞLANILIB

Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) Türkiyə Tərəfdaşlıq Proqramı (FTPP II) çərçivəsində Azərbaycanda “Torpaqların tərk edilməsi problemini həll etmək və torpaqların konsolidasiyası prosedurlarını yaxşılaşdırmaq üçün kənd təsərrüfatı torpaq bazarının inkişafının gücləndirilməsi” layihəsinin icrasına başlayıb.
Bu barədə Kənd Təsərrüfatı Nazirliyindən (KTN) bildirilib.
Bununla bağlı keçirilən görüşdə kənd təsərrüfatı nazirinin müavini İlhamə Qədimova həyata keçiriləcək layihənin ölkə üzrə əhəmiyyətindən danışıb, torpaqların istifadəsiz qalması ilə bağlı mövcud çətinliklərə toxunub. Nazir müavini qeyd edib ki, bütün dünyada kənd təsərrüfatı torpaqlarının istifadəsiz qalması ətraf mühitə və cəmiyyətin rifahına təsir etməklə, qlobal torpaq örtüyünün dəyişməsinə gətirib çıxarır. Bu da öz növbəsində əkinəyararlı torpaq sahələrinin deqradasiyası, təyinatına uyğun istifadə olunmaması, ərzaq təminatının pisləşməsi, iqtisadi imkanların itirilməsi, ekoloji vəziyyətin pisləşməsi ilə nəticələnir.
Azərbaycanda FAO-nun Tərəfdaşlıq və Əlaqələndirmə Ofisinin rəhbəri Nasar Hayat layihənin məqsəd və vəzifələri, torpaq sahələrinin konsolidasiyasının əhəmiyyəti, aktuallığı, qabaqcıl ölkələrin bu sahədə təcrübəsi barədə ətraflı məlumat verib. FAO-nun torpaq mülkiyyəti üzrə məsləhətçisi “Torpaqların Konsolidasiyası üzrə Milli Strategiyanın və Torpaqların Konsolidasiyası üzrə Pilot Layihənin hazırlanmasına dəstək” layihəsi barədə təqdimat edib, əldə olunan nəticələrlə bağlı görüş iştirakçılarını məlumatlandırıb, yeni layihə çərçivəsində görüləcək işlərə toxunub.
Qeyd edək ki, torpaqların istifadəsiz qalmasının qarşısının alınması məqsədilə Azərbaycan hökuməti FAO ilə birlikdə 2016-2019-cu illərdə texniki əməkdaşlıq proqramı çərçivəsində “Torpaqların Konsolidasiyası üzrə Milli Strategiyanın və Torpaqların Konsolidasiyası üzrə Pilot Layihənin hazırlanmasına dəstək” layihəsi (TCP/AZE/3601) həyata keçirib. Nəticədə “Torpaqların Konsolidasiyası üzrə Milli Strategiya” layihəsi, “Kənd Təsərrüfatı Torpaqlarının Konsolidasiyası haqqında” qanun layihəsi və “Torpaqların Konsolidasiyası üzrə Dövlət Proqramı” layihəsi hazırlanıb. Salyan rayonunun Şorsulu kəndində torpaqların konsolidasiyası üzrə pilot layihə icra olunub.

# Azərbaycanda qeyri-filiz yataqları auksion qaydasında istifadəyə veriləcək

Bu, "Yerin təkindən istifadənin dövlət tənzimlənməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 23 oktyabr tarixli 975 nömrəli Fərmanına dəyişiklikdə əksini tapıb.
Dəyişikliyə əsasən, Yer təkinin istifadəyə verilməsi ilə bağlı keçirilən müsabiqə açıq və ya qapalı, auksion isə açıq elan olunur. Açıq müsabiqədə və auksionda mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq, Azərbaycan Respublikasının, habelə xarici ölkələrin hüquqi



və fiziki şəxsləri iştirak edə bilərlər. Qapalı müsabiqədə yalnız bu məqsəd üçün dəvət olunan şəxslər iştirak edirlər.
Qapalı müsabiqə aşağıdakı hallarda keçirilir:
*- istifadəyə verilən yer təki sahəsinə dair geoloji informasiya məxfi hesab edildikdə;*
*- radioaktiv xammalın çıxarılması məqsədilə yer təki istifadəyə verildikdə;*
*- konversiya proqramını həyata keçirən müdafiə müəssisələri iştirakçı qismində çıxış etdikdə.*

# Azərbaycanla Pakistan arasında nəqliyyat əlaqələrinin perspektivləri müzakirə olunub



Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev Pakistan İslam Respublikasına səfəri çərçivəsində bu ölkənin dəmir yolu və aviasiya naziri Xavaca Saad Rafiq, kommunikasiyalar naziri Əsəd Mahmud, dənizçilik naziri Syed Faysal Ali Subzvari ilə ikitərəfli görüşlər keçirib.
Görüşlərdə iki ölkə arasında aviasiya, dəmir yolu və tranzit daşımaları sahələri daxil olmaqla, nəqliyyat sektoru üzrə əməkdaşlığın inkişafı məsələləri müzakirə edilib.
Rəşad Nəbiyev Azərbaycanın işğaldan azad edilmiş ərazilərində həyata keçirilən irimiqyaslı yenidənqurma və bərpa layihələri barədə məlumat verib. Bildirib ki, nəqliyyat infrastrukturunun inkişafı məqsədilə Azərbaycan bu sahəyə böyük sərmayələr yatırıb. Belə ki, bir sıra avtomobil və dəmir yolları çəkilib, yeni beynəlxalq hava limanları istifadəyə verilib.
Qeyd olunub ki, "Azərbaycan Hava Yolları" QSC (AZAL) yaxın zamanda Bakıdan İslamabad, Lahor və Kəraçi şəhərlərinə həftədə 2 dəfə olmaqla, birbaşa uçuşlar həyata keçirməyi planlaşdırır.
Tərəflər iki ölkə arasında daşımalar, o cümlədən tranzit daşımalar məsələsini müzakirə ediblər. Pakistanın limanlarından istifadə etməklə Azərbaycan üzərindən Şimal-Qərb və Şimal-Cənub dəhlizi vasitəsilə daşımaların həyata keçirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb.

# Dövlət Neft Fondunun aktivləri 55 milyard dollara yaxınlaşıb



Bu il iyunun 30-na Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) aktivləri ilin əvvəlinə (49 033,6 milyon ABŞ dolları) nisbətən 12 faiz artaraq 54 915,1 milyon ABŞ dolları olub.
Azərbaycan Respublikası Dövlət Neft Fondundan bildirilib ki, bu ilin yanvar-iyun ayları ərzində Fondun büdcə gəlirləri 11 701,4 milyon manat, büdcə xərcləri isə 2 680,8 milyon manat təşkil edib.
Yanvar-iyun ayları ərzində ARDNF-nin neft və qaz sazişlərinin həyata keçirilməsi ilə bağlı gəlirləri 8 624,3 milyon manat, o cümlədən mənfəət neftinin və qazın satışından 7 854,6 milyon manat, bonus ödənişləri 765,3 milyon manat, tranzit gəlirləri 0,8 milyon manat, akrhesabı ödənişlər 3,6 milyon manat olub. Fondun vəsaitinin idarə olunmasından əldə edilən gəlir 3 077,1 milyon manat təşkil edir. Valyuta məzənnələrinin dəyişməsindən yaranan fərq ilə bağlı ARDNF-nin büdcədənkənar gəlirləri 977, 6 milyon manat olub.
Hesabat dövründə ARDNF-nin 2023-cü il büdcəsinin icrası çərçivəsində 2 661,0 milyon manat vəsait dövlət büdcəsinə transfert edilib.
"2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nın maliyyələşməsinə 5,2 milyon manat yönəldilib. "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı"nın maliyyələşməsinə 3,6 milyon manat yönəldilib.
Yanvar-iyun ayları ərzində ARDNF-nin idarə edilməsi ilə bağlı xərcləri 11,0 milyon manat təşkil edib.
Bu ilin ilk yarım ilində aktivlərin artımı ARDNF-nin büdcə gəlirlərinin büdcə xərclərini üstələməsi, o cümlədən vəsaitlərin idarə edilməsindən əldə edilən gəlirlər hesabına olub.

# "Azərbaycanla İran arasında beynəlxalq tranzit 58% artıb"



Bunu Baş nazirin müavini Şahin Mustafayev Gilan vilayətinin Astara şəhərində Azərbaycan ilə İran arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının iclasında deyib.
Ş.Mustafayev bildirib ki, şimal və cənub dəhlizləri ilə beynəlxalq tranzitin həcmi 69% artıb: "2022-ci ildə isə İran və Azərbaycan arasında ticarət əməliyyatlarının həcmində 30% artım olub".

## Özbəkistan işğaldan azad edilmiş ərazilərimizdə aparılan bərpa-quruculuq işlərinə töhfə verməyə hazırdır

İqtisadiyyat naziri Mikayıl Cabbarov Şuşada Özbəkistanın investisiyalar, sənaye və ticarət naziri Ləziz Kudratovla görüşüb.
Nazirlikdən bildirilib ki, görüşdə dost Özbəkistanla ikitərəfli əlaqələrin inkişafında dövlət başçılarımızın siyasi iradəsinin, yüksək səviyyəli səfərlərin, keçirilən görüş və tədbirlərin xüsusi rolu vurğulanıb. Qeyd olunub ki, iqtisadi əlaqələrin inkişafında mühüm platforma olan Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın fəaliyyəti qarşılıqlı səylərlə daha da aktivləşdirilib. Görüşdə Azərbaycanın əlverişli biznes və investisiya mühiti, azad edilmiş ərazilərimizdə həyata keçirilən yenidənqurma və bərpa, həmçinin biznesin dirçəldilməsi işləri, sərmayədarlar üçün yaradılan imkanlar barədə məlumat verilib, özbəkistanlı investorlar ölkəmizdə yaradılan işgüzar mühitdən yararlanmağa dəvət ediliblər.
Tərəflər iqtisadi tərəfdaşlığın müxtəlif istiqamətlər üzrə gücləndirilməsi və qarşılıqlı maraq doğuran digər məsələlər barədə müzakirə aparıblar.
Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın 12-ci iclasında iqtisadiyyat naziri, hökumətlərarası komissiyanın həmsədri Mikayıl Cabbarov tədbirin Şuşada təşkil olunmuş ilk hökumətlərarası komissiya iclası olduğunu vurğulayıb və Özbəkistandan olan dostlarla birgə keçirilməsindən məmnunluğunu ifadə edib. Azərbaycanın iqtisadiyyat naziri xalqlarımızı və ölkələrimizi dostluq münasibətləri, ortaq tarix, kök, ənənələr və mədəniyyətin birləşdirdiyini qeyd edib, əlaqələrin genişləndirilməsi məqsədilə reallaşdırılan tədbirlərin önəmini diqqətə çatdırıb. Bildirilib ki, Özbəkistanla qarşılıqlı faydalı əlaqələr yüksələn xətlə inkişaf edir.
İclasda Azərbaycanda əlverişli biznes mühiti, iqtisadi fəallığın artırılması yönündə tətbiq edilən mexanizmlər, azad olunmuş ərazilərimizdə həyata keçirilən reinteqrasiya tədbirləri barədə məlumat verilib, Özbəkistan tərəfindən Füzulidə 960 şagird yerlik məktəb binasının tikildiyi vurğulanıb, Qarabağın bərpasında iştirak etdiyinə görə qardaş ölkəyə minnətdarlıq ifadə olunub.
Özbəkistanın investisiyalar, sənaye və ticarət naziri Ləziz Kudratov hökumətlərarası komissiyanın Şuşada təşkilindən məmnunluğunu ifadə edib, Qarabağ və Şərqi Zəngəzurda aparılan yenidənqurma işlərinin yüksək qiymətləndirildiyini qeyd edib. Bildirib ki, Özbəkistan işğaldan azad edilmiş ərazilərimizdə aparılan bərpa-quruculuq işlərinə töhfə verməyə daim hazırdır.
İclasda iqtisadi-ticarət əlaqələrinin şaxələndirilməsi, nəqliyyat-tranzit, sənaye, energetika, kənd təsərrüfatı, investisiya və digər sahələrdə tərəfdaşlıq münasibətlərinin inkişaf etdirilməsi barədə müzakirələr aparılıb.

# Bir neçə məhsulun idxalı gömrük rüsumundan azad olunub

Azərbaycana fərdi qoruyucu zirehli geyimlərin, alətlərin, minaaxtaran itlərin, partlayıcı və pirotexniki vasitələrin idxalı 2028-ci ilədək vergidən azad edilir.
Bu, Prezident İlham Əliyevin iyunun 18-də təsdiqlədiyi "Gömrük tarifi haqqında" qanuna dəyişiklikdə əksini tapıb.
Qanuna əsasən, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiqedici sənədi əsasında Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin, habelə müharibə və hərbi əməliyyatların təsirinə məruz qalmış digər ərazilərin minalardan və partlamamış hərbi sursatdan, tərkibində partlayıcı olan qurğulardan və digər partlayıcı qalıqlardan təmizlənməsi çərçivəsində bütün növ texnikanın, avadanlıqların, texniki vasitələrin və qurğuların, onların ehtiyat hissələrinin, fərdi zirehli qoruyucu geyimlərin, alətlərin, partlayıcı və pirotexniki vasitələrin, onların yaradılması və (və ya) istehsalı üçün tex-



nologiyaların, avadanlıqların, dəstləşdirici hissələrin və xammalın, habelə minaaxtaran itlərin idxalı 2023-cü il martın 1-dən 5 il müddətinə gömrük rüsumlarından azad ediləcək.

# Naxçıvanda sosial sığorta haqları üzrə daxilolmalar 11,8 faiz artıb

Naxçıvan Muxtar Respublikasında 2023-cü ilin yanvar-iyun ayları ərzində muzdlu işçi sayının və əməkhaqqı fondunun "ağarması" prosesi şəraitində məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalar 72,4 milyon manatdan çox olub.
Bu, ötən ilin müvafiq dövrü ilə müqayisədə 11,8 faiz və ya 7,6 milyon manat artım deməkdir.
Dövlət Vergi Xidmətindən bildirilib ki, qeyri-büdcə təşkilatları üzrə daxilolmalar 2022-ci ilin eyni dövrünə nisbətən 17,4 faiz artaraq 19,9 milyon manat təşkil edib.
Bu ilin 6 ayında işsizlikdən sığorta haqları üzrə daxilolmalar ötən ilin müvafiq dövrü ilə müqayisədə 16,2 faiz artaraq 1,9 milyon manat olub.
Bu dövrdə icbari tibbi sığorta haqları üzrə daxilolmalar 11,3 milyon manat olmaqla, ötən ilin eyni dövrünə nisbətən 8,9 faiz artıb.

# Neft-qaz sektorunda orta aylıq nominal əməkhaqqı 3 min 655,6 manat təşkil edib

Yanvar-iyun aylarında iqtisadiyyatın neft-qaz sektorunda 31,7 min nəfər çalışıb.
Dövlət Statistika Komitəsindən bildirilib ki, orta aylıq nominal əməkhaqqı neft-qaz



sektorunda 3 min 655,6 manat təşkil edib.
Dövlət müəssisələrində çalışan işçilərin əməkhaqları 871,2 manat, özəl müəssisələrdə isə 967,4 manat olub.

# İpək yolu yeni minilliyə gedən yoldur

***Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə 1998-ci il sentyabrın 7-8-də Bakı şəhərində 9 ölkənin (Azərbaycan, Türkiyə, Gürcüstan, Ukrayna, Moldova, Rumıniya, Bolqarıstan, Özbəkistan, Qırğızıstan) dövlət başçısı, 13 beynəlxalq təşkilat və 32 dövlətin nümayəndə heyətinin iştirakı ilə tarixi İpək yolunun bərpasına həsr olunmuş beynəlxalq konfrans keçirilib. Bu konfransın yekununda Avropa İttifaqının TRASEKA proqramı əsasında "Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında Əsas Çoxtərəfli Saziş" imzalanıb və Bakı Bəyannaməsi qəbul edilib.***








Əsas Çoxtərəfli Sazişin müddəalarına uyğun olaraq, TRASEKA Hökumətlərarası Komissiyasının Daimi Katibliyinin Bakı şəhərində yerləşdirilməsi qərara alınıb və 2001-ci il fevralın 21-də rəsmi açılışı olub. Beləliklə, Azərbaycan tarixi İpək yolunun bərpa edilməsinə öz töhfəsini verməklə, əsas inkişaf trayektoriyalarının müəyyənləşdirilməsində mühüm rol oynayıb.

Mövzu ilə bağlı qonağımız TRASEKA proqramının əsasını təşkil edən ilk beynəlxalq sənədlərin hazırlanmasında iştirak etmiş, məşhur iqtisadçı-alim, Beynəlxalq İqtisadçılar İttifaqının üzvü, akademik Ziyad Səmədzadədir.

**- Ziyad müəllim, TRASEKA proqramı Azərbaycan üçün hansı əhəmiyyətə malikdir?**

- TRASEKA proqramı bir çox ölkələrin, o cümlədən bizim respublikamızın da maraqlarına toxunur. Əlbəttə, Azərbaycan üçün onun çox böyük əhəmiyyəti vardır. Ölkəmizin əlverişli nəqliyyat şəraitindən, coğrafi mövqeyindən daha səmərəli istifadə etmək üçün real imkanlar yaranır.

Məlumdur ki, bu yaxınlara qədər respublikanın başlıca nəqliyyat dəhlizi şimal istiqamətində dəmir yolu olubdur. İqtisadi-ticarət əlaqələrinin xeyli hissəsi məhz bu nəqliyyat dəhlizi vasitəsilə həyata keçirilibdir.

Sovet İttifaqının dağılmasına qədər respublikanın yük dövriyyəsinin 90 faizə qədəri SSRİ regionlarının, xüsusilə Rusiyanın payına düşürdü. Müstəqillik əldə etdikdən sonra Azərbaycan sərbəst olaraq özünə partnyorlar seçib, xarici iqtisadi siyasətini formalaşdırıbdır. Bu gün respublikanın coğrafi əlaqələrinin strategiyası və strukturu kəskin dəyişib, bu strukturda Yaxın Şərqin, Asiyanın, Avropanın xüsusi çəkisi artıbdır. Azərbaycan əlverişli iqtisadi şəraitdən, güclü nəqliyyat amilindən istifadə edərək, öz iqtisadiyyatının strukturunu yaxşılaşdırmaq, onun səmərəliliyini artırmaq üçün real imkanlar əldə edibdir.

Əlbəttə, yeni nəqliyyat istiqamətinin Azərbaycan üçün əhəmiyyəti təkcə bununla müəyyən edilmir. İri nəqliyyat dəhlizinin mərkəzində yerləşən respublikamız öz ərazisindən keçən yüklərin daşınmasından böyük gəlir əldə edəcək. Burada ölçülər, həqiqətən, çox böyükdür. Biz son 20 ildə bu dəhlizin iştirakçıları olacaq Asiya və Avropa ölkələrindən gələn yük axınlarını təhlil etmişik. Hətta ən cüzi hesablamalara görə, yüklərin yarısı belə Azərbaycanın ərazisindən daşınarsa, bu, hər il azı bir neçə yüz milyon dollar deməkdir.

**- Azərbaycanın nəqliyyat sistemi bu cür son dərəcə yüksək ağırlığa davam gətirməyə qadirdirmi?**

- Sual yerində verilib. Bu cür geniş vəzifə respublikanın nəqliyyat sisteminin tam yenidən qurulması, daha dəqiq desək, təzələnməsi sayəsində həyata keçirilə bilər. Hələ 1993-cü ilin mayında ciddi hazırlıqdan sonra Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin koordinasiyası və inkişafı üzrə Brüssel konfransında iştirak edərkən bizim nümayəndə heyəti Bakı Limanının, dəmir yolunun, Xəzər Gəmiçilik İdarəsinin respublikanın əsas avtomagistrallarının yenidən qurulması tədbirlərinin planını Avropa Birliyinin müzakirəsinə təqdim edibdi. Deməliyəm ki, bizim nümayəndə heyətinin üzvləri yüksək peşəkarlıq səviyyəsində iş sənədləri hazırlayıb, nəqliyyat sistemində islahatlar aparılmasının konkret aspektlərinə, TRASEKA proqramının hazırlanmasında Azərbaycanın iştirakına dair məruzələr edib, məlumatlar veriblər.

**- TRASEKA proqramının hazırlanmasına nə vaxtdan başlanılıbdır?**

- Proqramın hazırlanmasının başlanma tarixini konkret deyə bilmərəm. Lakin burada bir şey aydındır: onun hazırlanmasının ilk addımlarından - söhbət hər şeydən əvvəl, tarixi İpək yolunun dirçəldilməsindən gedir – yəni XX əsrin son onilliyindən yeni yanaşmalar, yeni strategiya tələb olunur, çoxsaylı elmi-texniki xarakterli amillərin, ən başlıcası isə geosiyasi amilin nəzərə alınması zərurəti yaranır.

Mən dərindən inanıram ki, avropalılar, Avropa Birliyi, beynəlxalq maliyyə təşkilatları bu proqramı çoxdan hazırlayıblar. 1993-cü ildə yalnız işçi müşavirə keçirilibdir. Buna qədər Bakıya onlarca ekspert gəlib, bizim onlarla görüşlərimiz və söhbətlərimiz olubdur. Brüsseldəki müşavirə olduqca mötəbər idi. Həm də bu yalnız Sovet İttifaqının dağılmasından sonra mümkün ola bilərdi.

**- Nəyə görə?**

- Ona görə ki, keçmiş İttifaqda vahid nəqliyyat sistemi fəaliyyət göstərirdi və heç bir müttəfiq respublikanın bundan yan ötərək, alternativ layihələrdə və proqramlarda iştirak etməyə hüququ yox idi.

**- Bəs niyə yalnız səkkiz dövlət iştirak etmişdir?**

- Ona görə ki Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin fəaliyyət göstərməsi ərazisi məhz Qafqazın mərkəzində və Asiyada yerləşən keçmiş müttəfiq respublikaların razılığından çox asılıdır. Konfrans hər şeydən əvvəl onların razılığını almaq məsələsini qoyurdu. Çünki hər hansı dövlətin proqramda iştirakı ilk növbədə həm də ona etibar göstərilməsi və bu dövlətin öz üzərinə müəyyən öhdəliklər götürməsi deməkdir.

Dövlətin və AB nümayəndələrinin ətraflı, ciddi müzakirələrindən sonra Brüssel Bəyannaməsi imzalanıbdır. Bizim respublika adından bəyannaməni nümayəndə heyətinin rəhbəri və texniki yardımın göstərilməsi üzrə milli koordinator kimi mən imzaladım.

**- Siz bu bəyannamənin mahiyyətini, məzmununu izah edə bilərsinizmi?**

- Məlumat üçün bildirim ki, bəyannaməni Azərbaycanın, Qazaxıstanın, Qırğızıstanın, Ermənistanın, Gürcüstanın, Tacikistanın, Türkmənistanın nümayəndələri və AB-nin iqtisadi komissiyasının təmsilçisi imzalamışlar.

Bəyannamədə deyilir ki, iştirakçı ölkələrin nümayəndələri beynəlxalq daşımalar, ticarət və müvafiq qaydalara dair məsələlərin birgə həll olunacağına öz razılıqlarını bəyan edir, öz ölkələrinin coğrafi mövqeyi nəzərə alınmaqla, tranzit daşımalarının potensialının yüksəldilməsində maraqlı olduqlarını bildirir, qonşu ölkələrin tranzit yüklərinin keçirilməsinin mümkünlüyünü nəzərə alaraq, yüksək buraxılış qabiliyyəti olan etibarlı nəqliyyat yollarının inkişafının zəruriliyini qeyd edirlər.

Bəyannamədə həmçinin nümayəndə ölkələrin nəqliyyat sistemlərinin və bununla əlaqədar regional əsasda ticarət xidmətlərinin inkişafı sahəsində əməkdaşlığın istiqamətləri barədə, Avropa-Qafqaz-Asiya dəhlizinin fəaliyyət göstərdiyi, ərazisindən keçdiyi yeni müstəqil dövlətlərə AB-nin məsləhət, tədris, məlumat, texniki yardımının xarakteri və istiqamətləri barədə arzular öz ifadəsini tapıbdır. Hazırda nəqliyyat sistemində pozitiv dəyişikliklər baş verir. Onu xüsusilə qeyd etmək istərdim ki, son dərəcə çətin şəraitə, maliyyə məhdudiyyətlərinə baxmayaraq, nəqliyyat işçiləri maneələri aradan qaldıra bilmişlər və bu gün bütövlükdə nəqliyyat kompleksi normal fəaliyyət göstərir.

**- Daha hansı Asiya dövlətləri bu nəqliyyat dəhlizinin əsaslandırılmasının hazırlanmasında iştirak etmişlər?**

- İşgüzar müşavirədə Pakistanın, Monqolustanın və Çinin nümayəndələri var idi. Mən bu dəhlizin məqsədyönlüyünə dair onların konkret hesablamalarını xüsusi qeyd etmək istərdim. Belə ki, Çin mütəxəssislərinin məlumatlarına görə, bu dəhlizin işə düşməsi daşınmaların məsafəsini kəskin azaldır. Misal üçün, Çinin Lyanyunqan limanından Sinqapur və Suveyş kanalı vasitəsilə Rotterdam limanına qədər dəniz daşımasının uzunluğu 19,8 min km, Avropa-Qafqaz-Asiya dəhlizi ilə isə 11 min km-dir, yəni 8 min km azdır. Demək artıqdır ki, bu nə qədər böyük qazanc vəd edən göstəricidir.

Dəhliz ilə şimala gedərək Şimali Avropaya, qərbə gedərək Şərqi və Qərbi Asiyaya, Şimali Afrikaya çatmaq olar. İki qitədən keçən dəhliz Sakit və Atlantik okeanlarını birləşdirir. Göründüyü kimi, bu proqramın reallaşmasında Çinin maraqlı olmasının xeyrinə qənaətbəxş əsaslar vardır. Bildiyiniz kimi, son illər ərzində Azərbaycan-Çin münasibətləri sürətlə inkişaf edir, qarşılıqlı surətdə faydalı əməkdaşlıq üçün möhkəm təməl qoyulubdur. Təbiidir ki, bu dəhlizin fəaliyyəti bizim iqtisadi əlaqələrimizin intensivliyinə kömək edəcəkdir. Bu deyilənləri cəsarətlə Asiyanın digər ölkələrinə də aid etmək olar.

**- Siz Bakıda çox mötəbər sammitin keçirilməsini necə qiymətləndirirsiniz?**

- Son dərəcə yüksək. Bu, tarixi forumdur. Əhəmiyyətinə, sosial-iqtisadi nəticələrinə görə bu sammiti dünya inkişafının qlobal problemlərinə həsr edilmiş ən iri dünya forumları ilə müqayisə etmək olar. Və Ulu Öndərimiz Heydər Əliyevin çox böyük xidməti vardır. Hər bir ölkənin, hər bir xalqın, hətta bütöv bir qitənin tarixi inkişafında elə məsələlər olur ki, onların həlli əsrlərlə tərəqqiyə kömək edir, mahiyyət etibarilə inkişafın daimi amili, həmişəlik gəlir, sabit məşğulluq mənbəyi, inteqrasiya proseslərinin dərinləşməsinin mühüm vasitəsi olur.

Nəzərə almaq lazımdır ki, TRASEKA qlobal strateji proqramdır, ona görə də onun dərindən işlənməsi, elmi əsaslandırılması yalnız bir ölkənin vəzifəsi deyil. Proqramda bir çox ölkələrin milli dövlət maraqları və dünya iqtisadi inkişafının maraqları birləşir. Yalnız uzağı görməyən adamlar, yalnız vətənpərvərlik hissindən məhrum adamlar bu sammitin əhəmiyyətini lazımınca qiymətləndirməyə bilərlər.

Hələ bir neçə il bundan əvvəl AB-nin tövsiyələrinə əsasən bu dəhlizin buraxılış qabiliyyətini müəyyənləşdirmək üçün işçi qrup yaradaraq, Qafqazın, Orta Asiyanın və Qazaxıstanın yük axınları haqqında məlumatları təhlil edərkən, mən dərindən inanırdım ki, əgər bu proqnozların hətta kiçik bir hissəsi həyata keçirilərsə, respublikamız külli miqdarda qazanc əldə edə bilər.

**- Siz bu dəhlizin Azərbaycan və digər ölkələr üçün əhəmiyyətindən danışdınız. Bəs Avropa Birliyinin marağı nədədir?**

- AB-nin görkəmli rəhbərlərindən biri olan Leon Britten hələ 1993-cü ildə Brüsseldəki müşavirədə çıxışında demişdir: ***"Mən inanıram ki, bir tərəfdən Orta Asiya və Qafqaz ölkələri, digər tərəfdən Qərbi Avropa ölkələri arasında uzunmüddətli kommersiya əlaqələri və ticarət geniş mənada hamı üçün - həm Orta Asiya, Qafqaz, həm də Avropanın sakinləri üçün böyük əhəmiyyətə malikdir. Ticarətin yeni strukturunun yaradıldığı indiki dövrdə Qərbi Avropa mövcud kommersiya əlaqələrinin təzələnməsində və yenilərinin yaradılmasında son dərəcə maraqlıdır. Aydındır ki, Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin işə düşməsi və fəaliyyəti ilə mineral-xammal resurslarının zəngin olduğu böyük bir ərazidə Qərbi Avropanın təsiri güclənəcək, iqtisadi artımın və məşğulluğun yeni mənbələri yaranacaq, nəqliyyat xərcləri azalacaq və s."***

**- Bəs Rusiyanın mövqeyi necədir?**

- Mən Rusiyanın rəsmi mövqeyini bilmirəm. 1993-cü ildə Brüsseldəki işçi müşavirədə rus ekspertləri, mütəxəssisləri iştirak etməyiblər. Bu cür məsələlərdə mənafelər problemi böyük əhəmiyyətə malikdir. Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi, hər şeydən əvvəl bu regionun ölkələrinin nəqliyyat xidmətlərinin beynəlxalq standartlar əsasında formalaşmasını nəzərdə tutur. Yəni yüklər Rusiyadan yan ötərək, Qafqazın, Orta Asiyanın, Qazaxıstanın ərazilərindən keçəcəkdir. Yadınıza salmaq istəyirəm ki, hələ bir neçə il bundan əvvəl TRASEKA proqramı haqqında məlumat ortaya çıxanda Rusiyanın rəsmi dairələrində yeni alternativ yollar, onların müqayisəli səmərəliliyi barədə söhbətlər başlanmışdır.

Elm böyük qüvvədir. Nüfuzlu ekspertlərin, elmi mərkəzlərin hesablamalarına görə, Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi daha səmərəi, rahat, əlverişli və perspektivlidir.

*(davamı gələn sayımızda)*

**Ramid İbrahimov,**
**www.bakivaxti.az**

# Söyüdlü ilə bağlı kompleks təkliflər hazırlandı

Gədəbəy rayonunun Söyüdlü kəndinin ərazisində aparılan araşdırma və monitorinqlərin nəticələri əsasında mövcud vəziyyət təhlil edilib, sağlamlıq, təhlükəsizlik, ekoloji mühitin yaxşılaşdırılması ilə bağlı kompleks təkliflər hazırlanaraq Nazirlər Kabinetinə təqdim olunub.

Bu barədə Gədəbəy rayonunun Söyüdlü kəndində monitorinqlərin aparılması və mövcud vəziyyətin qiymətləndirilməsi məqsədilə ölkə Prezidentinin tapşırığı və Baş nazirin 2023-cü il 21 iyun tarixli Sərəncamı ilə yaradılmış Komissiyanın məlumatında deyilir.



Nəticələr göstərib ki, ərazidə fəaliyyət göstərən müəssisə tərəfindən təhlükəsizlik, ekoloji, sanitar qaydalarda pozuntulara yol verilib, istismar və tikinti prosesində müvafiq icra orqanlarının razılığı alınmayıb.

Bu səbəbdən hazırlanmış təkliflər paketində müəssisənin fəaliyyətinin müvəqqəti dayandırılması haqqında qərar verilib.

Hazırlanan təkliflər planına beynəlxalq şirkətlərin iştirakı ilə ərazidə ekoloji auditin aparılması, tullantı anbarının reabilitasiya və rekultivasiya planının hazırlanması, mövcud tullantı anbarı və bəndinin dayanıqlılığının yoxlanılması, ətraf mühitin sağlamlaşdırılması tələblərinin tam olaraq yerinə yetirilməsi məsələləri daxil edilib. Həmçinin istehsalatda müasir texnologiyaların tətbiqi şərtilə, şirkətin sonrakı fəaliyyətini davam etdirməsi də təkliflər planına əlavə olunub.

Yerli icmalarla münasibətlərin yaxşılaşdırılması, Söyüdlü kəndində korporativ tibbi, sosial layihələrin həyata keçirilməsi də istismarçı şirkətin qarşısında qoyulan məsuliyyətlər sırasındadır.

Gədəbəy rayonunda Komissiyanın növbəti iclası keçirilib, istismarçı şirkətin nümayəndələri ilə görüş olub, sağlamlaşdırma proqramında əks olunan təkliflər paketi ətrafında müzakirələr aparılıb. Daha sonra kənd sakinləri ilə görüş təşkil edilib, onlara Komissiyanın gördüyü işlər barədə məlumatlar verilib.

# Депутат Гаджи Мадар ушел, не попрощавшись



Скончался один из самых известных «депутатов-долгожителей» Гаджи Мадар Мусаев. Народный избранник, а Мусаев по праву мог называться наделенным вотумом доверия избирателей от Бинагадинского народа, с 1990 года, то есть еще до провозглашения независимости входил в состав азербайджанского парламента. Депутат Мадар Мусаев был одним из тех депутатов, кто пользовался непререкаемым авторитетом в своем районе и среди своих избирателей. Да, он не был глашатаем и трибуном, не запомнились и его яркие речи за парламентской кафедрой. Однако прозванный в народе Гаджи Мадаром депутат пользовался всенародным уважением. Поражали его уязвленное чувство справедливости, скрупулезное отношение к каждой проблеме избирателя, отсутствие безразличия, столь свойственного многим государственным мужам в наше непростое время.
Гаджи Мадар был не только глубоко религиозным, но и правильным человеком. Его друзья и враги сходились в одной оценке: «Это настоящий мужик».
Гаджи Мадар не был энциклопедистом и эрудитом, но он был одним из последних носителей народной мудрости и устного творчества. Словно продолжатель творчества Мир Мовсума Навваба. Можно было часами заслушаться его философскими беседами о «постсовковом бытие». Воистину его можно было назвать одним из последних представителей «старого Баку», который продолжает исчезать в перляже «второго нефтяного бума».
Гаджи Мадар не занимался политикой, но политика занялась им, увлекла своим азартом, своей опасностью и непредсказуемостью.
Но и политику депутат-мудрец воспринимал сквозь свой личный мир, который делился на друзей и недругов, правильных и порочных людей. Он ставил во главу угла человеческой добродетели преданность. Сложно было найти в Азербайджане второго такого преданного в дружбе человека. Гаджи Мадар мог пойти против ветра и даже урагана, но прийти на помощь другу. В любой ситуации, и даже самой критической.
Он олицетворял образ старого бакинского купца, но лишенного чувства страха и низкопоклонничества. Да, он был вынужден следовать правилам «бакинской политической моды», но ему претил «моральный кодекс чинуши».
Словом, уход Гаджи Мадара – это большая потеря для «старого Баку», для старой улицы Советской, для Кубинки, для Бинагади, для Хребтовой… Вместе с ним уходит целая эпоха и история нашего города.
Гаджи Мадар ушел в мир иной по-своему, только он так мог и покинуть этот бренный мир. Депутат спешил в больницу, хотел навестить своего друга. И у порога поскользнулся, сломав бедро. И его самого поместили в эту же больницу. С этого момента он впал в кому. И не проснулся.
Гаджи Мадар ушел, не попрощавшись, ибо вечно будет жить в нашей памяти!

**haqqin.az**

# Азербайджан и Узбекистан обсудили взаимное инвестиционное сотрудничество



Как передает во вторник Trend, об этом написал министр экономики Азербайджана Микаил Джаббаров на своей странице в Twitter.
"Мы оценили меры, принятые для диверсификации экономических и торговых отношений между нашими странами и содействия сотрудничеству и взаимным инвестициям в различных секторах, включая промышленность, энергетику и сельское хозяйство", - написал Джаббаров после встречи с министром инвестиций, промышленности и торговли Узбекистана Лазизом Кудратовым в кулуарах 12-го заседания Совместной межправительственной комиссии Азербайджана и Узбекистана, состоявшегося в Шуше.
Отметим, что товарооборот между Азербайджаном и Узбекистаном с января по май 2023 года составил 76,7 миллиона долларов США, из которых 52,2 миллиона пришлось на узбекский экспорт, а 24,5 миллиона - на импорт.

# Россия и Турция обсудили зерновую сделку

18 июля министр иностранных дел России Сергей Лавров обсудил ситуацию вокруг зерновой сделки с турецким коллегой Хаканом Фиданом, передает во вторник Trend.
Кроме того, также обсуждалась возможность закупки Анкарой крупногабаритных самолетов у Москвы для тушения лесных пожаров.
«Обсуждались последние события в рамках стамбульского соглашения по зерну и закупка у России крупногабаритных самолетов для тушения лесных пожаров», - сообщил МИД Турции.
Подробности и результаты переговоров пока не разглашаются.
Напомним, что Россия объявила, что с 18 июля сделка прекращает действие. Российская сторона будет готова ее возобновить, когда будет выполнена российская часть договоренностей.
Как сказал госсекретарь США Энтони Блинкен, США и их союзники будут искать способы заменить зерновую сделку, но найти альтернативу такого же масштаба будет непросто.

# Азербайджанские вузы наращивают глобальные рейтинги



В последнее время часто обсуждаются рейтинги мировых вузов. По просьбам читателей предлагаем мнения специалистов по этой актуальной теме.
В конце июня текущего года международное аналитическое агентство в области высшего образования QS Quacquarelli Symonds(QS) опубликовало 20-й юбилейный выпуск рейтинга лучших университетов мира 2024 года – QS World University Rankings 2024, в который вошли 1499 наиболее успешных высших учебных заведений из более чем 100 стран мира.
Впервые с 2016 года количество азербайджанских вузов в этом влиятельном институциональном рейтинге выросло до трех: Азербайджанский государственный экономический университет (UNEC) и Бакинский государственный университет расположились в диапазоне с 1001 по 1200 позиции, а Азербайджанский государственный университет нефти и промышленности уверенно дебютировал во флагманском рейтинге QS, заняв позицию в диапазоне 1201-1400. Что же говорит рейтинг QS World University Rankings 2024?
В течение последних 20 лет методология рейтинга лучших университетов мира – QS World University Rankings оставалась в значительной степени неизменной: любые изменения заключались в улучшении существующих методов или процессов, а не в изменении состава индикаторов.
За последние два десятилетия требования к оценке работы вузов значительно изменились. Работа высших учебных заведений призвана отвечать запросам общества, поэтому приверженность целям устойчивого развития, подготовка востребованных и успешных выпускников и участие в международных научных исследованиях стали тремя новыми составляющими методологии рейтинга лучших университетов мира – QS World University Rankings.
Добавление трех новых индикаторов привело, помимо прочего, к снижению веса индикатора «Соотношение числа преподавателей и студентов», по которому вузы большинства стран Восточной Европы и Центральной Азии показывали наиболее высокие результаты – с 20 % до 10 %.
В этих условиях Азербайджан стал единственной страной региона, чьи вузы не только сохранили ранее достигнутые позиции, но и увеличили присутствие в наиболее влиятельном рейтинге QS.
Особо хотелось бы отметить повышение показателей азербайджанских вузов по индикаторам академической репутации и репутации среди работодателей, рассчитываемых на основе результатов масштабных глобальных ежегодных опросов, в которых принимают участие сотни тысяч экспертов по всему миру. На протяжении последних трех лет число участников этих опросов, отмечающих азербайджанские вузы в числе наиболее успешных, продолжает увеличиваться, что свидетельствует о росте международного признания азербайджанского высшего образования в международных академических кругах и сообществах работодателей.
Кроме того, отдельного упоминания заслуживает вхождение Азербайджанского государственного университета нефти и промышленности в число 300 лучших вузов мира по индикатору «Достижения выпускников», что, безусловно, является выдающимся результатом.
О повышении узнаваемости азербайджанских вузов на международной арене говорит участие двух азербайджанских вузов в предметных рейтингах лучших университетов мира – QS World University Rankings by Subject, опубликованных в марте текущего года: Азербайджанский университет языков вошел в диапазон 301-340 своего профильного предметного рейтинга по «Современным языкам», Азербайджанский государственный экономический университет расположился в диапазоне 501-530 также своего профильного предметного рейтинга по «Экономике и эконометрике». Таким образом, в этом году Азербайджан впервые представлен в глобальных предметных рейтингах, отличающихся высоким уровнем конкуренции со стороны вузов-участников.
Важно отметить, что региональный рейтинг лучших университетов развивающихся стран Европы и Центральной Азии 2022 года – QS Emerging Europe and Central Asia University Rankings 2022 насчитывает семь азербайджанских вузов, что на два больше, чем в предыдущем выпуске рейтинга. В данный рейтинг входят Университет Хазар (211-220 позиция), Азербайджанский государственный экономический университет (221-230 позиция), Бакинский государственный университет (251-300 позиция), Университет «АДА» (301-350 позиция), а также Азербайджанский университет архитектуры и строительства, Азербайджанский государственный университет нефти и промышленности и Бакинский инженерный университет, которые вошли в диапазон с 401 по 450 позиции нашего регионального рейтинга. Наконец, Западно-Каспийский университет является участником программы QS Stars, которая предполагает прохождение аудита вуза по 30 индикаторам в восьми различных категориях.
Данные цифры и факты убедительно демонстрируют положительную динамику позиций азербайджанских вузов в глобальных рейтингах университетов.

# Анкара и Эр-Рияд подписали соглашения в сфере энергетики и обороны

Турция и Саудовская Аравия подписали во вторник несколько соглашений и меморандумов о взаимопонимании в сферах энергетики, связи, инвестиций и обороны.
Как передает Trend, подписание документов состоялось в Джидде после встречи Президента Турции Реджепа Тайипа Эрдогана с наследным принцем Саудовской Аравии Мухаммедом бин Салманом. Так, были подписаны меморандум о взаимопонимании по сотрудничеству в области поощрения прямых инвестиций между Турцией и Саудовской Аравией, меморандум о взаимопонимании о сотрудничестве в сфере связи между Управлением по коммуникациям администрации президента Турции и министерством информации Саудовской Аравии, план реализации сотрудничества между министерством национальной обороны Турции и министерством обороны Саудовской Аравии, меморандум о взаимопонимании в области энергетики между министерством энергетики и природных ресурсов Турции и министерством энергетики Саудовской Аравии, а также соглашение о сотрудничестве между министерством обороны Саудовской Аравии и компанией Baykar. На церемонии подписания документов также присутствовали Реджеп Тайип Эрдоган и Мухаммед бин Салман. Напомним, что Эрдоган прибыл в понедельник с визитом в Саудовскую Аравию и провел встречу с наследным принцем. Президент Турции также посетит Катар и ОАЭ.

# Bayramınız mübarək, QƏHRƏMAN JURNALİSTLƏR!



***22 iyul ölkəmizdə Milli Mətbuat Günüdür. Həsən bəy Zərdabinin min bir əziyyətlə nəşrinə icazə aldığı və elə o zəhmətlə, çətinliklərlə az yaşasa da, tariximizdə çox böyük iz buraxmağı bacaran "Əkinçi"dən başlanan yol...***

Bu bayramı hazırda yeni nəsil də, tarixə öz fəaliyyəti ilə iz salanlar da, mətbuat işçiləri də, onlarla birgə sevinənlər də birlikdə qeyd edir. Lakin, zənnimizcə, bu bayramın əsl qəhrəmanları məhz bu tarixi yaradanlar, başlanğıcını qoyanlarla bərabər, həm də onu yaşadanlar, mətbuat tariximizin şanlı səhifələrinin yazılmasında mühüm rol oynayan, ölkəmiz və xalqımız üçün ən çətin zamanlarda qələmini qılınca, obyektivini qalxana çevirən, gerçəyin dili olmağı bacaran Zərdabilərdir.

Təbii ki, zamanla bərabər çox şey dəyişdi, qəhrəmanlar da, onların mübarizə üsul və vasitələri də. Dəyişməyən tək şey isə amal, məqsəd oldu, ***"Əkinçi"nin xalqı qəflət yuxusundan oyatmaq, zülm və cəhalətdən qurtarmaq cəhdləri zamanla xalqımızın başına erməni vandalları və onların havadarları tərəfindən açılan min bir oyundan xalqı xəbərdar etmək, səsimizi həm də beynəlxalq aləmə yaymaq, əhalini düşmənə qarşı birliyə səsləmək mübarizəsi ilə əvəz olundu. Beləliklə də, tarixdə zaman-zaman qəhrəmanların adı dəyişdi, Zərdabilər Çingizlərə, Çingizlər Məhərrəmlərə çevrildi...***

Bu gün həm də öz jurnalistlik şücaəti ilə düşmənə qarşı mübarizə aparan Çingiz Mustafayevin bayramıdır. Ölkənin çox ağır imtahanlardan keçdiyi bir dönəmdə - xalqımızın ermənilər tərəfindən ciddi təqiblərə, soyqırımılarına məruz qaldığı bir vaxtda cəmiyyətin gözünü açaraq, çaş-baş qalmış insanlar üçün suallara doğru cavab tapmaqda məhz onun peşəkarlığının böyük rolu olmuşdur. Xüsusilə Qarabağ həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında əvəzsiz əməyi olan Çingiz Mustafayev mətbuatımız, ümumiyyətlə isə jurnalistikamız üçün cəsarət və qorxmazlıq nümunəsidir. Elə ordumuzun hücum əməliyyatını çəkərkən yaralanması və əbədiyyətə qovuşması bir daha onun jurnalistikaya bağlılığının və bu günün əsas qəhrəmanlarından olduğunun bariz təsdiqidir.

**Bu gün gəm də Alı Mustafayevin bayramıdır. O, Birinci Qarabağ müharibəsi dövründə ən qaynar nöqtələrdən müsahibələr hazırlayır, reportajlar təqdim edirdi. Elə ölümü də peşə fəaliyyətini həyata keçirərkən oldu. Qarabağın Qarakənd səmasında ermənilər tərəfindən vurulan təyyarədə idi.**

22 iyul tarixində xatırlanması gərəkən xüsusi qəhrəmanlardan biri də Salatın Əsgərovadır. Zərif cinsin peşəsində çox cəsarətlə və uğurla addımlayan bu nümayəndəsi də peşə fəaliyyətini həyata keçirərkən düşmən gülləsinə tuş gəlir.

Bu siyahını Osman Mirzəyev, Kazımağa Kərimov, Fəxrəddin Şahbazov kimi öz peşəsinə bağlı və elə xidməti fəaliyyətlərini icra edərkən şəhid olan qəhrəmanlar sayəsində daha da uzatmaq olar. Çünki zaman heç dayanmır, illər keçir, əsrlər ötür. Müasir dövrün Zərdabiləri yetişir. Elə Məhərrəm İbrahimov və Sırac Abışov kimi...

Azərbaycanın 30 illik işğala verdiyi layiqli cavabla əzəli torpaqlarımız geri alındı, vətənimiz əsir düşmüş hissəsini qaytararaq öz bötüövlüyünə qovuşdu. Lakin xəbis düşmən yenə də öz çirkin niyyətindən əl çəkməyərək, torpaqlarımızı xəritəsini hələ də vermədiyi minalar ilə doldurdu. Bu isə nəinki bir çox hərbi qulluqçularımızın, əsgərlərimizin, həmçinin xidməti fəaliyyətdə olan bəzi jurnalistlərimizin ölümü ilə nəticələndi. Qəribədir, hərbi sahədə çalışanlar hər an ölümü gözə alır və bunu şəhidlik zirvəsinə ucalaraq yaşamaq istəyirlər. Lakin jurnalist üçün peşəsini icra edərkən şəhidlik qazanmaq, düşünürəm, gözlənilməz və şərəfli bir addır, yüksək zirvədir. Bu zirvəyə isə İkinci Qarabağ müharibəsi dövründə Məhərrəm və Sırac ucaldılar.Bu gün həm də sizlərin bayramıdır, qəhrəman jurnalistlər!

**Biz bu günü sizlərlə qürurlanaraq qeyd edirik.**

**BAYRAMINIZ MÜBARƏK!**

**Mətanət HÜSEYNOVA**

# DVX şəbəkə və əməliyyat sistemlərinin təkmilləşdirilməsinə 6 milyon manatdan artıq vəsait ayırır

Dövlət Vergi Xidməti (DVX) şəbəkə və əməliyyat sistemlərinin təkmilləşdirilməsinə 6,1 milyon manatdan artıq vəsait yönləndirir.

AZƏRTAC dövlət satınalmalarının vahid internet portalına istinadən xəbər verir ki, artıq "Cybernet" MMC ilə 6 milyon 117,524 min manat məbləğində müvafiq müqavilə bağlanıb. Qeyd edək ki, müqavilə 6 istiqamətdə işlərin yerinə yetirilməsini nəzərdə tutur. Bütün işlərin 6 ayda yekunlaşdırılması nəzərdə tutulub.

# 21,3 milyon manat məbləğində ziyanın dövlət büdcəsinə ödətdirilməsi təmin edilib




İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən cari ilin yanvar-iyun ayları ərzində vergi ödəməkdən yayınma faktları üzrə 268 cinayət işi başlanılıb. Əvvəlki ildən qalmış işlər də nəzərə alınmaqla, cəmi 80 cinayət işi üzrə ibtidai istintaq tamamlanıb, 42 cinayət işinin icraatına xitam verilib, 47 nəfər barəsində ittiham elan edilməklə 38 cinayət işi məhkəməyə göndərilib, 2 nəfər təqsirləndirilən şəxs barəsində həbs qətimkan tədbiri seçilib.

Dövlət Vergi Xidmətindən bildirilib ki, istintaqı tamamlanmış 42 cinayət işindən 18 iş üzrə vergiödəyiciləri tərəfindən yayındırılmış vergilər ibtidai istintaq zamanı tam şəkildə ödənildiyindən, Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinə əsasən müvafiq qərarlar qəbul edilib. Həmin cinayət işləri üzrə əvvəlki illərin ödəmələri nəzərə alınmaqla, dövlət büdcəsinə 3 milyon 551,8 min manat məbləğində vəsait ödənilib. 2023-cü ilin 6 ayı ərzində ümumilikdə 21 milyon 288,5 min manat məbləğində ziyanın büdcəyə ödətdirilməsi təmin edilib.

Cari ilin 6 ayı ərzində müxtəlif sahələrdə, o cümlədən idxal, topdan və pərakəndə ticarət, istehsal, ictimai iaşə fəaliyyəti göstərən 100 vergiödəyicisində 199 nəzarət tədbiri həyata keçirilib, 76 vergiödəyicisində 163 nöqsan aşkar edilib. Operativ vergi nəzarəti tədbirləri nəticəsində ümumilikdə 1 milyon 150,3 min manat məbləğində maliyyə sanksiyası tətbiq edilib.

Hesabat dövründə vergi borcu üzrə cinayət tərkibi yaradan və vergi orqanlarından daxil olmuş materiallarla bağlı görülmüş preventiv tədbirlər nəticəsində dövlət büdcəsinə 2,6 milyon manat həcmində vəsait ödətdirilib.

# Gündəlik həyatımızın ayrılmaz hissəsi - bank kartları

Bank kartları maliyyə həyatımızın ayrılmaz hissəsinə çevrilib. Onlar bizə ödənişlər edərkən və nağd pul çıxararkən rahatlıq və təhlükəsizlik təmin edirlər. Bu gün bazarda hər biri xüsusi ehtiyaclar və məqsədlər üçün nəzərdə tutulmuş bir neçə əsas bank kartı növü mövcuddur. Bu kartlar həm bank tərəfindən, həm də digər təşkilatlar tərəfindən buraxıla bilər. Bu yazıda biz bank kartlarının əsas növlərini və onların xüsusiyyətlərini nəzərdən keçirəcəyik.




**Debet kartı**

**Debet kartı** ən çox yayılmış bank kartı növüdür. O, bank hesabınızla əlaqələndirilir və ödənişlər birbaşa həmin hesabdan həyata keçirilir. Debet kartı sizə alış-veriş etməyə, nağd pul çıxarmağa və onlayn əməliyyatlar aparmağa imkan verir. Pul dərhal hesabınızdan silinir. Debet kartı adətən kredit limiti vermir və siz hesabınızda olduğundan artıq xərcləyə bilməzsiniz.

**Kredit kartı**

**Kredit kartı** sizə kredit tarixçəniz və ödəmə qabiliyyətiniz əsasında bankın sizə ayırdığı kredit limitindən istifadə edərək alış-veriş etmək və nağd pul çıxarmaq imkanı verir. Kredit kartı sizə güzəşt müddəti adlanan müəyyən faizsiz müddət verir və bu müddət ərzində siz borcunuzu faizsiz ödəyə bilərsiniz. Əgər borcu tam ödəməsəniz, qalan məbləğə faizlər hesablanacaq. Kredit kartları həmçinin alış sığortası və ya loyallıq proqramları kimi əlavə üstünlüklər təklif edə bilər.

**Əvvəlcədən ödənilmiş kart**

"Kredit kartı" kimi də tanınan qabaqcadan ödənişli kart hesabınızı əvvəlcədən maliyyələşdirməyə və bu vəsaitdən alış-veriş etmək və nağd pul çıxarmaq üçün istifadə etməyə imkan verir. O, debet kartına bənzəyir, lakin bank hesabınızla əlaqələndirilmir. Öncədən ödənilmiş kartlar xüsusilə xərclərə nəzarət üçün və ya bank hesabı açmaq istəməyən və ya aça bilməyənlər üçün faydalıdır. Belə kartlardan bəzən hədiyyə kimi istifadə edilir.

**Biznes kartları**

Vizit kartları sahibkarlar və şirkətlər üçün nəzərdə tutulub. Onlar sizə bizneslə bağlı xərclərinizi izləməyə və idarə etməyə imkan verir və mühasibat uçotu üçün əlverişli hesabat xüsusiyyətləri təklif edir. Biznes kartlarında biznes alışlarında endirimlər və ya bizneslə əlaqəli mükafat proqramları kimi əlavə xüsusiyyətlər ola bilər.

**Səyahət kartları**

**Səyahət kartları** tez-tez xaricə səyahət edən insanlar üçün nəzərdə tutulub. Onlar adətən aşağı xarici valyuta çıxarma haqlarına malikdirlər və həmçinin mükafat xalları və ya pulsuz xaricdə tibbi xərclərin sığortası və ya hava limanının lounge tipli salonlarına pulsuz giriş kimi səyahət bonusları təklif edirlər.

Bunlar bazarda mövcud olan bank kartlarının əsas növlərindən yalnız bir neçəsidir. Yadda saxlamaq lazımdır ki, hər bir bank öz kart seçimlərini və şərtlərini təklif edə bilər. Kart seçərkən, qərar qəbul etməzdən əvvəl ehtiyaclarınızı, maliyyə vəziyyətinizi nəzərə almaq, həmçinin şərtlərlə tanış olmaq tövsiyə olunur.

# Bu il sosial müavinətlər üzrə 493 mln., Prezident təqaüdləri üzrə 320 mln. manat ödənilib




Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Sosial Müdafiə Fondu tərəfindən bu ilin yanvar-iyun aylarında 450 min nəfərə sosial müavinət, 373 min nəfərə Prezidentin aylıq təqaüdü ödənilib.

Nazirlikdən verilən xəbərə görə, həmin dövrdə əhaliyə sosial müavinətlər üzrə ötən ilin müvafiq dövrünə nisbətən 24 faiz çox olmaqla 493 mln. manat, Prezident təqaüdləri üzrə 21 faiz çox olmaqla 320 mln. manat ödənilib.

Son 6 ayda 68 min, sosial ödənişlərin elektron təyinatına başlandığı 2019-cu ildən 497 min müavinət və təqaüd təyinatı e-sistem üzərindən proaktiv qaydada həyata keçirilib.

# "Fitch" Azərbaycanın iqtisadi artım proqnozunu yenidən qiymətləndirəcək

"Fitch Solutions" neft qiymətlərində aşağı tendensiyanın davam etməsi fonunda Azərbaycanın iqtisadi artım proqnozunu yenidən qiymətləndirəcək.

Bunu "Fitch Solutions" beynəlxalq reytinq agentliyinin Avropa ölkələri üzrə risk rəhbəri Anvita Basu deyib.

O bildirib ki, Azərbaycan iqtisadiyyatı neftlə əlaqəli olduğu üçün qiymətlərdə azalma "Fitch Solutions"un ölkənin iqtisadi artımla bağlı proqnozuna təsir edəcək.

FS-nin Azərbaycan üçün hazırkı inkişaf proqnozu ölkənin Avropa üçün etibarlı alternativ enerji mənbəyinə çevrilməsi fonunda Avropa İttifaqı ilə artan ticarət əlaqələri ilə bağlıdır. Tələbin nisbətən dəyişkən olması, Avropanın zəif inkişaf perspektivi enerjiyə artan ehtiyaca əhəmiyyətli dərəcədə təsir göstərməyəcək. Bu isə Azərbaycana sərmayə qoyuluşuna təkan verəcək, inflyasiyanın tədricən aşağı düşməsinə şərait yaradacaq, eyni zamanda ölkədə iqtisadi artımı dəstəkləyəcək.

"Beynəlxalq Valyuta Fondu və Avropa Yenidənqurma və İnkişaf Bankı 2023-cü il üçün Azərbaycanda ÜDM-in artımı ilə bağlı proqnozunu 2-2.5% civarında müəyyən edib. "Fitch Solutions" da proqnozunu həmin səviyyələrə endirməyə çalışacaq", – Anvita Basu əlavə edib.

Qeyd edək ki, "Fitch Solutions"un Azərbaycanda ÜDM-in artımı ilə bağlı cari proqnozu 3.53% təşkil edir.




# Kapital bazarlarında investorların kompensasiyası mexanizmi yaradılacaq

İyulun 18-də İqtisadi Şuranın iclasında kapital bazarlarında investorların kompensasiyası mexanizminin yaradılmasına dair təkliflər geniş müzakirə olunub. Bu barədə Nazirlər Kabinetindən bildirilib.



İclasın yekununda müzakirə olunan məsələlər barədə Şura üzvlərinin təklifləri də nəzərə alınmaqla qərarlar qəbul olunub və aidiyyəti qurumlara müvafiq tapşırıqlar verilib.

# Ulu öndər Heydər Əliyevin 100 illiyinə həsr edilmiş intellektual oyun keçirilib



14 iyul 2023-cü il tarixində Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü münasibətilə Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin təşkilatçılığı ilə Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsi və Mərkəzi Gömrük Hospitalının əməkdaşları arasında intellektual yarış keçirilib. Tədbirdə Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin sədri, tibb xidməti general-mayoru Ceyhun Məmmədov, Tibbi Xidmət İdarəsinin rəis müavinləri - İsmayıl Əfəndiyev, Fərid Əbilov, Mərkəzi Gömrük Hospitalının Baş həkimi Bəxtiyar Musayev, Tibbi Xidmət İdarəsinin Maliyyə şöbəsinin rəisi Arzu Həsənov və digərləri iştirak ediblər. Tədbirin açılış mərasimində çıxış edən Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin sədri, tibb xidməti general-mayoru Ceyhun Məmmədov breyn-rinq yarışının Dövlət Gömrük Komitəsinin təşəbbüsü ilə keçirildiyini bildirib. 2023-cü ilin Ulu Öndər Heydər Əliyev ili elan edilməsi çərçivəsində Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin təşkilatçılığı ilə keçirilən silsilə tədbirlər barəsində danışıb.



C.Məmmədov çıxışı zaman Ulu Öndər Heydər Əliyevin səhiyyə sistemi ilə yanaşı, gömrük sisteminin yaradılması və inkişafı istiqamətində olan xidmətləri, bu gün bütün sahələrdə təməli Ümummilli Lider tərəfindən qoyulmuş siyasətin möhtərəm cənab Prezident İlham Əliyev tərəfindən layiqincə, uğurla, əzm və peşəkarlıqla davam etdirildiyini qeyd edib. Daha sonra Ümummilli Lider Heydər Əliyevin 100 illiyi ilə bağlı Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsi tərəfindən keçirilən tədbirləri əks etdirən videoçarx nümayiş olunub.

Mərkəzi Gömrük Hospitalında keçirilən tədbirdə "Şuşa", "Xəmsə", "Döyünən ürəklər", "Şəfqət" və "Xəzinə" komandaları mübarizə aparıblar. Yarışda birinci turun sualları Ulu Öndər Heydər Əliyevə, ikinci turun sualları "Heydər Əliyev və Azərbaycanda gömrük xidməti", üçüncü turun sualları isə ümumi mövzulara həsr edilib. Yarışın nəticələrinə görə "Xəmsə" komandası birinci yerin, "Döyünən ürəklər" komandası ikinci yerin və "Şuşa" komandası üçüncü yerin qalibləri olublar. Sonda qalib komandalara diplomlar və hədiyyələr təqdim edilib.

**Mərkəzi Gömrük Hospitalının PR mütəxəssisi Dilarə Zamanova**

# Madər Əliəsgər oğlu Musayev



***Azərbaycan ictimaiyyətinə ağır itki üz vermişdir. Tanınmış ictimai xadim, Azərbaycan Respublikasının Milli Məclisinin deputatı Madər Əliəsgər oğlu Musayev 2023-cü il iyulun 14-də ömrünün 76-cı ilində vəfat etmişdir.***

Madər Musayev 1947-ci il noyabrın 26-da Bakı şəhərində anadan olmuşdur. O, 1975-1982-ci illərdə Moskva Kooperativ İnstitutunun Bakı filialının Sənaye əmtəəşünaslığı və ticarətin təşkili fakültəsində ali təhsil almışdır.

Əmək fəaliyyətinə 1964-cü ildə Bakı şəhərində ticarət sahəsində başlayan Madər Musayev 1995-ci illədək bu sahədə müxtəlif vəzifələrdə çalışmış, iri ticarət mərkəzlərinə rəhbərlik etmiş, ticarətin təşkili və təkmilləşdirilməsi işində mühüm xidmətlər göstərmişdir. O, uzun illər ərzində tutduğu vəzifələrdən asılı olmayaraq yüksək təşkilatçılıq qabiliyyəti nümayiş etdirmiş, insanlara münasibətdə həssaslığı və dərin məsuliyyət hissi sayəsində böyük hörmət və rəğbət qazanmışdır.

Madər Musayevin ictimai fəaliyyəti də zəngin olmuşdur. O, XII çağırış Azərbaycan Respublikası Ali Sovetinin və I-VI çağırışlar Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilmişdir. Azərbaycan Respublikası Milli Məclisinin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin və İntizam komissiyasının üzvü kimi dövlət quruculuğu və vətəndaş cəmiyyətinin formalaşdırılması istiqamətində nailiyyətlərin əldə olunmasında Madər Musayevin xidmətləri təqdirəlayiqdir. O, həmçinin Türkiyə, Rusiya, İran, Pakistan, Səudiyyə Ərəbistanı, Tunis, Gürcüstan və Tacikistan parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvü olmaqla parlamentlərarası qarşılıqlı əməkdaşlığın inkişafına töhfələr vermişdir.

Madər Musayev milli dövlətçiliyə sədaqəti və xalqımızın adət-ənənələrinə xüsusi ehtiramı sayəsində çoxsaylı seçiciləri arasında həqiqi nüfuz sahibi olmuşdur. Xeyriyyəçilik fəaliyyəti onun ali insani keyfiyyətlərini xarakterizə edən başlıca cəhətlərdən idi.

**Madər Musayevin ölkəmizin ictimai-siyasi həyatında fəal iştirakı daim lazımınca qiymətləndirilmiş və o, uzunmüddətli səmərəli fəaliyyətinə görə müstəqil Azərbaycan Respublikasının ali mükafatlarına layiq görülərək, 2007-ci ildə "Şöhrət", 2017-ci ildə "Şərəf" və 2022-ci ildə 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordenləri ilə təltif edilmişdir.**

Tanınmış ictimai xadim, xeyirxah və səmimi insan Madər Əliəsgər oğlu Musayevin xatirəsi onu tanıyanların qəlbində həmişə yaşayacaqdır.

**Allah rəhmət eləsin!**

**İlham Əliyev**
**Mehriban Əliyeva**
**Əli Əsədov**
**Sahibə Qafarova**
**Samir Nuriyev**
**Eldar Əzizov**
**Ədalət Vəliyev**
**Əhliman Əmiraslanov**
**Ziyafət Əsgərov**
**Hicran Hüseynova**
**Eldar İbrahimov**
**Eldar Quliyev**
**Ağalar Vəliyev**

## ALLAH RƏHMƏT ELƏSİN

Akademik Ziyad Səmədzadə Milli Məclisin deputatı
**MADƏR ƏLİƏSGƏR OĞLU MUSAYEVİN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.




# Altı ayda Azərbaycana turist axını 44 faiz artıb

"Cari ilin 6 ayı ərzində Azərbaycana 920 minədək turist gəlib. Bu, ötən ilin müvafiq göstəricisi ilə müqayisədə 44 faiz çoxdur".

Bu barədə Dövlət Turizm Agentliyi sədrinin müşaviri Kənan Quluzadə bildirib.

Onun sözlərinə görə, gələn turistlərin sıralamasında birinci yerdə ənənəvi olaraq qonşu ölkə - Rusiyadan, ikinci yerdə isə Türkiyədən gələn qonaqlarımızdır, üçüncü yerdə iyun ayının yekunlarına əsasən Hindistandır. Sıralamanı İran, Gürcüstan, Özbəkistan, Pakistan, Böyük Britaniya, Qazaxıstan, Birləşmiş Ərəb Əmirliklərindən gələn turistlər davam etdirir. Qeyd edək ki, ölkəmizə gələnlərin 32,9 faizi Rusiya, 19,2 faizi Türkiyə, 7,7 faizi İran, 5,2 faizi Hindistan, 4,9 faizi Gürcüstan, 2,4 faizi Səudiyyə Ərəbistanı, hər birindən 2,3 faiz olmaqla Pakistan və Qazaxıstan, 2,1 faizi Birləşmiş Ərəb Əmirlikləri, 1,8 faizi Özbəkistan, hər birindən 1,5 faizi olmaqla Belarus və Ukrayna, 1,3 faiz Küveyt, hər birindən 1,2 faiz olmaqla Böyük Britaniya və Türkmənistan, 12,5 faizi digər ölkələrin vətəndaşları olub. Gələnlərin 72,2 faizini kişilər, 27,8 faizini qadınlar təşkil edib. 2022-ci ilin yanvar-iyun ayları ilə müqayisədə MDB ölkələrindən gələnlərin sayı 1,9 dəfə artaraq 385,8 min nəfər, Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayı 40 faiz artaraq 46,7 min nəfər, körfəz ölkələrindən gələnlərin sayı 8,9 faiz azalaraq 134,2 min nəfər olub.




**Azəri Light və Brent markalı neftin bir barelinin 1-19 iyul tarixlərində birja qiyməti, ABŞ dolları ilə (ICE birjası)**

**İqtisadçı ekspert Maqsud Quliyev**

**Təsisçi:**
**Akademik Ziyad SƏMƏDZADƏ**
**Baş redaktor:**
**Aytən SƏMƏDZADƏ**

**ELMİ-REDAKSİYA ŞURASI:**
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Bəyalı Ataşov, Zahid Məmmədov, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Abbas Əliyev

www.iqtisadiyyat.com

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq:
+99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500